DOI:10.30546/gdu.2023.163-167

UOT: 94.

MDB MƏKANINDA GƏNCLƏRƏ İLK İXTİSASLAŞDIRILMIŞ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ
(tarixi inkişafı və müasir vəziyyəti)

Dissertant Sadiqov Tahir Köçəri oğlu
Azərbaycan Milli Elmlər Akademiyası, M.Füzuli adına Əlyazmalar İnstitutu,
baku_2007@mail.ru

Xülasə: *Məqalənin məqsədi MDB məkanında gənclərə ilk ixtisaslaşdırılmış kitabxana-informasiya xidmətinin təşkili adlı mövzunun araşdırılmasıdır. Keçmiş Sovet İttifaqında gənclərə ixtisaslaşdırılmış kitabxana xidməti XX əsrin 60-cı illərinin ikinci yarısında başlanılır və 1974-cü ildə Sov. İKP MK-nın məlum qərarından sonra daha da inkişaf edir. İlk dəfə 1966-cı ildə Moskva şəhərində yaradılan, Umumittifaq səviyyədə fəaliyyət göstərməsi nəzərdə tutulan ixtisaslaşdırılmış kitabxana hal-hazırda Rusiya Dövlət Gənclər Kitabxanası (RDGK) adlanır. Tədqiqat aparılarkən müqaisə və təhlil metodlarından istifadə edilmişdir. Materialın tətbiqi əhəmiyyəti odur ki, Ali təhsil müəssisələrində mühazirə və məşğələlərdə istifadə oluna bilər, tarix, kitabxanaşünaslıq sahələri ilə maraqlananlar üçün faydalıdır.*

Açar sözlər: Gənclər kitabxanası, tarix, RDGK, müasir kitabxana xidməti
Ключевые слова: Юношеские библиотеки, история, РГЮБ, современное библиотечное обслуживание.
Keywords: Youth libraries, History, Russian State Youth Library, modern library services.

Giriş

Rusiya Dövlət Gənclər Kitabxanası (RDGK) - Federal Dövlət büdcəsindən maliyyəşən mədəniyyət təşkilatı olub, ixtisaslaşdırılmış, 14-30 yaş arası gənclərə, peşəkar səviyyədə gənclərin problemləri ilə məşqul olan fiziki və hüquqi şəxslərə xidmət edən kitabxanadır. Eləcə də bu kitabxana Rusiyada gənc istifadəçilərlə iş üzrə ictimai kitabxanalar bir elmi informasiyakonsaltinq mərkəzidir. Rusiya Dövlət Gənclər Kitabxanası (1966-1996) 1939-cu ildən Dövlət İctimai Tarix Kitabxanasının Gənclər filialı kimi Qırmızı Meydanda yerləşən Tarix muzeyinin binasında fəaliyyət göstərirdi. Hazırda – Rusiya Dövlət İctimai Tarix Kitabxanası kimi fəaliyyətini davam etdirir. 11 oktyabr 1966-ci il RSFSR-nin Mədəniyyət Nazirliyi və Mərkəzi Komsomol Komitəsinin təşəbbüsü ilə bu filialın bazasında 14-dən 21 yaşadək yeniyetmə yaşlı oxucular üçün ölkədə respublika əhəmiyyətli ilk ixtisaslaşdırılmış kitabxana yaradıldı. Yeni kitabxana 9 mərtəbəli yaşayış binasının birinci mərtəbəsində "Preobrajenskaya ploşad" metro stansiyasının qarşısında yerləşirdi. Kitabxanaya İrina Viktorovna Baxmutskaya başçılıq edirdi. Bu ixtisaslaşdırılmış kitabxananın yaranma zərurəti ideyası: gənclik – "spesifik sosial və psixoloji xüsusiyyətlərinə malik olan xüsusi yaş kateqoriyasıdır" kimi müəyyənləşdirilmişdi. Məhz bu dövrdə gənclərin həyatında əhəmiyyətli təhsil problemləri, peşə seçimi, vətəndaş mövqeyinin, mənəvi, estetik, bədii prinsiplərin formalaşdırılması qarşısına çıxır. Ədəbiyyat nəzərdə tutulmuş yetkin və daha mühafizəkar nəslin təcrübəsi olmayan gənclərdə cavab tapmır. 60-70-ci illərdə Dövlət Respublika Gənclər kitabxanasında o vaxtkı kütləvi kitabxana xidmətləri sistemində analoqu olmayan müxtəlif şöbələr yaradılır: sosioloji araşdırmalar şöbəsi; peşəyönümü şöbəsi;gənclərin problemləri üzrə informasiya-biblioqrafik şöbəsi; musiqi-not şöbəsi (incəsənət söbəsi); linqafon kabinetli audiovizual materialları şöbəsi; kütləvi işlər şöbəsi. Digər tərəfdən də kitabxananın fəaliyyəti ideoloji, tərbiyə institutu kimi önə çəkilirdi. Dövrün reallıqlarına uyğun olaraq müxtəlif mərhələlərdə kitabxanada digər şöbələr də yaradılmışdır. DRGK Mərkəzi Komsomol

DOI:10.30546/gdu.2023.163-167

Komitəsi, Mərkəzi Həmkarlar İttifaqı, DİN üçün bir metodik baza olub və yarandığı gündən bu təşkilatlarla fəal əməkdaşlıq edib, həmçinin Maarif Nazirliyi və texniki peşə təhsili məktəblərinin bir sıra kitabxanaları ilə müxtəlif konfranslar, müşavirələr, dəyirmi masalar təşkil edib. Kitabxanada Mərkəzi Komsomol Komitəsinin səyyar plenum iclasları tez-tez keçirilirdi.

1970-ci illərdə DRGK ölkə kitabxana işi sahəsinə çoxlu innovativ ideya və təcrübə irəli sürdü: kitab olmayan materiallarla kitabxananın komplektləşdirməsi (ilk növbədə, diapozitiv slaydlarla, markalarla, qrammofon vallarla və notlarla); qrammofon valları abunə işini təşkil etmək (1971-ci ildə SSRİ-də ilk dəfə); peşəyönümlü şöbə tərəfindən hazırlanan və uzun illər ərzində müxtəlif səviyyəli yüzlərlə kitabxanaların istifadə etdiyi peşəyönümlü sistemin fəaliyyəti;gənclərin mütaliə və kitabxana davranışı sosioloji tədqiqatlarda; bu gün modifikasiya və daimə istifadə olunan kitabxana tələbatın təhlili metodikasında; peşəkar terminologiyasının dəqiqləşdirilməsi, "sərbəst oxu", "kitabxana davranışı", "işgüzar oxu"; gənclər kitabxanalarının təhsil sistemi ilə qarşılıqlı fəaliyyət konsepsiyası. 70-ci illərdə kitabxananı müxtəlif Avropa, Latın Amerikası ölkələrindən, ABŞ-ın gənclər nümayəndə heyətləri tez-tez ziyarət edirdilər. Görüşlər DRGK-nın kollektiv üzvü olduğu Mərkəzi Komsomol Komitəsinin yanında beynəlmiləl dostluq klubu xətti ilə həyata keçirilirdi. Məhz o zaman kitabxana əməkdaşlarının xarici nümayəndələrlə, həm də praktiki olaraq SSRİ-də naməlum olan submədəniyyətlərlə - hippilərlə, panklarla, metalçılarla ilk görüşü oldu. DRGK-da tez-tez çili xalqına dəstək və Kuba ilə həmrəylik məqsədli mitinq və konsertlər keçirilirdi. 1974-cü ildə DRGK strukturunda kütləvi kitabxanalara fondlarının komplektləşdirilməsinə yardım məqsədi ilə Mərkəzi kitabxana fondu (MKF) yaradılır. Bu fond ölkənin ilk növbədə yeni yaradılan ya təbii fəlakətlərdən ziyan çəkmiş kitabxanalara kömək edirdi. MKF-dən olan minlərlə nüsxə kitab bağlamaları ölkənin bütün güşələrinə yollanır, o cümlədən Baykal-Amur dəmir yolu magistralının (BAM) gənc inşaatçılar qəsəbələrində kitabxanalar açılırdı. O vaxtlar BAM "əsrin tikintisi" adlanırdı. Magistralın bir xəttinin uzunluğu təxminən 3200 km təşkil edirdi. Bu magistralda Mərkəzi Komsomol Komitəsinin "Komsomolskaya pravda" təşviqat qatarı hərəkət edir, vaqonların biri kitabxana olaraq təchiz olunur və DRGK-nın filialı kimi göstərirdi. Bu filialın müdiri komsomol göndərişi ilə BAM-a gələn Zoya Panova idi. Qatarın dayanacaq zamanı vaqonda kitab oxumaq, jurnallar, qəzetlər, yeni ədəbiyyat, vallar və radio dinləmək sifariş etmək olardı. Dövrün parlaq aksiyalarından biri gənc inşaatçılar üçün DRGK və "Komsomolskaya pravda" qəzeti tərəfindən təşkil olunmuş kitab yığımı idi. Aksiya "Qırmızı yelkən" adlanırdı. Kitabxananın ünvanına ölkənin hər yerindən yüzlərlə kitab bağlamaları gəlirdi. DRGK-nın gənc əməkdaşları inşaatçıların tələbatına uyğun olaraq kitabxana fondlarının formalaşmasında poçtda bağlama qəbulu və ədəbiyyatın seçilməsi üçün çox böyük işlər gördülər. Həmin dövrdə elmi-tədqiqat, analitik bazanın yaradılması üzrə xeyli təcrübə qazanıldı. DRGK-nın sosiologiya şöbəsi "İşləyən gənclərin həyatında kitab və mütaliə", "Müasir kəndin həyatında kitab", "Yuxarı sinif şagirdlərinin həyatında mütaliə" mövzusunda üç iri ümumittifaq tədqiqatlar həyata keçirdi. Peşəyönümü şöbəsi müxtəlif eksperimental metodik layihələr hazırlayırdı. Bu metodikalar müxtəlif sistem və idarə kitabxanaların iş təcrübəsində "Yuxarı sinif şagirdlərinin idrak maraqlarının inkişafı üzrə kitabxana işi", "Yuxarı sinif şagirdlərinin idrak maraqları ilə bağlı kitabxana və məktəbin birgə işi", "Yuxarı sinif şagirdlərinin humanitar maraqları inkişafı üzrə kitabxana işi" fəal tətbiq olunmağa başladı. Şöbənin əməkdaşları bütün ölkəni gəzir, məzuniyyətlər edir, saysız-hesabsız mühazirələr, seminarlar, praktiki məşğələlər, ixtisasartırma kursları həyata keçirirdilər.

1980-ci illərdə kitabxana gənclərin mədəni-maarifləndirmə və asudə vaxt problemi müzakirələrində fəal iştirak edirdi. Yazıçılar Anatoliy Aleksin, Albert Lixanov, Yulian

DOI:10.30546/gdu.2023.163-167

Semyonov, Leonid Juxovitskiy, Vladimir Amlinskiy; şairlər Rəsul Qamzatov, Andrey Dementyev, Robert Rojdestvenskiy, Aleksandr İvanov; bəstəkarlar Yan Frenkel, Mark fradkin, Yevgeniy Krılatov, Yevgeniy Martınov, Vladimir Şainski və başqaları bu illərdə kitabxana ilə dostluq edib və tez-tez onların qonaqları olurdu. Kitabxanada aktyorlar Vasiliy Lanovoyun, Vera Vasilyevanın, Zinoviy Qertın, Valentin Qaftın, Vladimir Konkının və başqalarının yaradıcılıq gecələri keçirilirdi. İosif Kobzonun və Konstantin Raykının ilk konsertləri burada keçirilmiş və sonralar bu adlar çox məşhur olmuşdu. Kitabxana sosioloqları apardıqları "Gənc oxucu – 80" ümumittifaq araşdırması nəticələrinə görə öz oxucuları ilə gənclər kitabxanalarının qarşılıqlı fəaliyyət strategiyası uzun müddət müəyyənləşdi. Bu zaman kitabxanada marağa əsasən “Al yelkənlər” ədəbiyyat birliyi, “Dialoq” siyasidiskussiya klubu, “Hünər” hərbi-vətənpərvərlik klubu, “Ünsiyyət” psixoloji klubu və s. müxtəlif klublar və yaradıcılıq birliyləri fəaliyyət göstərirdi. Kütləvi işlər şöbəsi tərəfindən Politexnik muzeyində və İttifaqlar Evinin Oktyabr zalında dövlət bayramları və əlamətdar günlər münasibətilə böyük tədbirlər təşkil olunurdu. Hər bir tədbir səyyar kitab sərgisi ilə tamamlanırdı.

1981-ci ildən DRGK-da ölkədə ilk ekoloji maarifləndirmə və təhsil şöbəsi öz işinə başladı. Şöbənin əməkdaşları SSRİ kitabxanaçıları üçün müşavirələr, seminarlar, konfranslar, ixtisasartırma kursları təşkil edir və ekoloji mövzuda baxışlar, müsabiqələr, peşə ustalığı məktəbi, metodikbiblioqrafik materiallar (2002-ci ildə RF Mədəniyyət Nazirliyinin kollegiyasının qərarı ilə şöbənin bazasında ekoloji mədəniyyətin Ümumrusiya kitabxana elmi-metodik mərkəz yaradılıb) dərc edirdi. 1980-ci illərin ortalarında yaradılan gənclərin elmi-texniki yaradıcılıq şöbəsində intensiv işlər aparılırdı. Zamanın tələblərinə uyğun olaraq və gənclərin mütaliəyə marağını və kitabxanalarda oxucu davamiyyətini (2000-cı illərin əvvəllərində kritik xəttə çatmış) qoruyub saxlamaq zərurəti ilə əlaqədar, 2006-cı ilin sonundan 2009-ci ilin əvvəlinədək kitabxananın tam yenidənqurulmasını və modernləşdirilməsi həyata keçirilmişdir (xarici görünüş, fondların təkribi, resurslar, mühit, texnologiyalar, kadr tərkibi və xidmət sistemi). Yeniləşmiş RDGK-nın rəsmi açılış mərasimi "Müasir kitabxana - müasir gənclik üçün" devizi altında 2009-ci il aprelin 9-da artıq yeni görünüşdə həyata keçirildi. Fəxri qonaqlar arasında Rusiya Mədəniyyət Nazirliyinin rəhbərləri, Federal və Moskva kitabxanalarının, Rusiya Dövlət Duması, RF İdman, Turizm və gənclər siyasəti Nazirliyinin, şəhər mədəniyyət komitəsinin, Moskva şəhər mədəniyyət idarəsi, eləcə də rayon hakimiyyəti, gənclərin işləri üzrə komitə nümayəndələri, kitabxana veteranları, Moskva Dövlət mədəniyyət və incəsənət universitetinin professor və müəllim heyəti, nəşriyyat nümayəndələri və sadəcə kitabxananın dostları dəvət olmuşdular. Onların arasında kitabxananın köhnə dostu məşhur rus şairi Andrey Dementyev də var idi. 2009-cu il aprelin 16-da Gənclərin mədəni-tarixi mərkəzinin də açılışı oldu. Bu mərkəz RDGK-nın filialı statusunda fəaliyyət göstərməyə başladı. Burada kitabxananın musiqi-not şöbəsi yerləşdirildi. Şöbənin fondunda 70 mindən yuxarı qrammofon valları, 40 min not nəşrləri və musiqi mövzusuna dair geniş kitab kolleksiyası toplanmışdı.

Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin 27 avqust 2009-cu il 589 nömrəli əmri ilə RDGK-nın adı dəyişərək Rusiya Dövlət Gənclər Kitabxanası adlandırıldı. Hal-hazırda kitabxananın istifadəçilərə xidmət edən struktur bölmələri bunlardır: Təbii və texniki elmlər üzrə ədəbiyyat zalı; Humanitar və ictimai elmlər üzrə ədəbiyyat zalı; Xarici dillərdə ədəbiyyat zalı; Nadir kitablar zalı; Bədii ədəbiyyat və incəsənət zalı; Kitabxanaşünaslıq bürosu; Uşaq otağı; Gənclərin problemləri üzrə informasiya və resurs mərkəzi; Kompyuter kitabxanası;Fonoqram və musiqi-not şöbəsi; Vizual mədəniyyət və komikslər mərkəzi; Gənclərin sosial adaptasiyası və psixoloji dəstək mərkəzi; Rusiya Dövlət Gənclər Kitabxanasının zalları. Təxminən 900 min çap məhsulu fondu olan zallarda elektron kataloqlu

DOI:10.30546/gdu.2023.163-167

terminallar, özünəxidmət (kitabların geri qaytarılması stansiyası daxil olmaqla, sutkada 24 saat işləyən kitabxana) oxucu stansiyası quraşdırılıb. İstifadəçilər bir dəqiqə ərzində müstəqil şəkildə kitabı qaytarma, vaxtı uzatmaq və ya evə ala bilərlər. Kitabxana ərazisində Wi-Fi zonası da mövcuddur. Oxucular sərbəst şəkildə öz noutbuklarında işləyə bilər və virtual məlumat xidmətindən də faydalanırlar.

Nəticə

Beləliklə, kitabxanada gənc əlillərin bütün kitabxana xidmətlərindən sərbəst, maneəsiz faydalanması üçün bütün texnoloji şərait və resurs bazası mövcuddur. Kitabxana gənclərin təlim-tədris və şəxsi təhsil prosesində informasiya dəstəyi və peşəyönümlü, psixoloji, təhsil xidmətləri göstərir, maarifləndirmə və mədəni-asudə vaxt keçirilməsi işini təşkil edir. Kitabxana Rusiya yeniyetmə və gənclər, uşaq-gənclər kitabxanalarının şəbəkəsi üçün, eləcə də digər kütləvi gənclər kitabxanalarına xidmət göstərən məlumatkonsultasiya mərkəzidir. Kitabxananın resurs və xidmətlərindən RF, yaxın və uzaq MDB ölkələri vətəndaşları istifadə edə bilərlər. Rusiya Dövlət Gənclər Kitabxanası, federal səviyyəli kitabxana olaraq, gənclərlə işin yeni forma və metodlarının öyrənilməsi, təsdiq edilməsi bazasıdır. Rusiyada ictimai kitabxanalar üçün nümunə olaraq ixtisaslaşdırılmış kitabxana xidməti göstərir, müxtəlif ideyalar tətbiq edir, kitabxanaların ümumdünya kitabxana mühitinə qəbul olmağına təkan verir və qarşılıqlı kömək edir. RDGK "Rusiya kitabxana assosiasiyası", "Beynəlxalq kitabxana assosiasiyalarının və müəssisələrinin federasiyası (ИФЛА)", uşaq və gənclər kitabxanalarının bölməsi"Amerika kitabxana assosiasiyası (ALA)", gənclərlə işləyən kitabxana bölməsi (YALSA); "Britaniya kitabxanaçılar və informasiya işçilərinin assosiasiyası"nın aktiv üzvüdür.

Ədəbiyyat

1. Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2012, 305 s.
2. Xələfov A.A. Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsi. B.,BDU n, 2016, 320 s.
3. Əhmədov E.Y. Uşaq və gənclərin kitabxana-informasiya təminatı. – Monoqrafiya,-Mütərcim,2016, 245 s.
4. Казими П.Ф. Информационная инженерия в библиотечной деятельности. научно-теоретический и практический журнал. № 8 (87) 2014. серия: экология. физика. география и геология. современные информационные технологии. технические науки. уралнаучкнига. город уральск. стр.100-106.
5. Sadıqov T.K. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası: dünəni, bu günü və sabahı. Bakı,"Apostroff", 2014, - 424 s.
6. Sadıqov T.K. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası (Elmi, metodiki və təcrübi fəaliyyətin təhlili) Bakı,"Apostroff", 2015, - 272 s.
7. Sadıqov T.K. Milli irsin təbliğində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının rolu. "ŞƏRQ" Nəşriyyatı Bakı, 2016, 168 səh.

ПЕРВОЕ СПЕЦИОЛИЗИРОВАННОЕ БИБЛИОТЕЧНО ИНФОРМАЦИОННОЕ ОБСЛУЖИВАНИЕ МОЛОДЕЖИ В СНГ

Садыгов Тахир Кочари оглы

Резюме

Статья исследует появление первых юнишеских библиотек в пространстве СНГ, развитие и институтизацию специализированных библиотек для молодежи. При написании статьи использовались методы анализа и сравнения. В научный оборот введена литература, написанная на разных языках.Актуальность применения: материал

DOI:10.30546/gdu.2023.163-167

может быть использован на лекциях и семинарах в высших учебных заведениях. Статья также полезна для тех, кто интересуется библиотечным делом и образованием.

THE FIRST SPECIALIZED LIBRARY INFORMATION SERVICE OF YOUTH IN CIS

Sadigov Tahir Koshari

Summary

The article explores the appearance of the first youth libraries in the CIS, development and institutionalization of specialized libraries for youth. Analysis and comparison methods were used while writing the article. Application importance: the material can be used in lectures and seminars in higher education institutions. The article is also useful for those interested in librarianship and education.

Rəyçi: elmlər doktoru A.Əliyeva-Kəngərli
Kitabxana və biblioqrafiyaşünaslıq şöbəsinin 15.05.23 tarixli iclasından
Daxil olma tarixi 22 iyun 2023-cü il